https://doi.org/10.59849/3006-1342.2024.2.15
UOT 94(479.24)

*N.Ə.Allahverdiyev, R.A.Abdullayeva*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş., H.Əliyev pr., 419*
*E-mail: abdullayevaruziye596@gmail.com*

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ İŞTİRAK EDƏN AZƏRBAYCANLI ZABİTLƏR

*Çar Rusiyası hakimiyyəti dövründə müsəlmanları hərbi işlərə yaxın buraxmırdılar. Buna baxmayaraq mülkədar zümrələrin övladları həvəslə hərbi məktəblərə daxil olub təhsil alırdılar. Birinci Dünya müharibəsi başlayanda üç yüzdən artıq azərbaycanlı zabit döyüşdə vuruşmuş və beşyüzə qədər ordenlə təltif edilmişlər. 4 il, 3 ay, 10 gün davam etmiş,cəbhədə 9,5 milyon insanın həlak olduğu, 20 milyon insanın yaralandığı və 3,5 milyon insanın şikəst qaldığı bu müharibədə, Hüseyn xan Naxçıvanski, Səməd bəy Mehmandarov,Əliağa Şıxlinski, Seyfulla Mirzə Qacar, Cahangir bəy Kazımbəyli, Teymur bəy Novruzov və s. general və zabitlər xüsusi fərqlənmişlər.*

*Açar sözlər:* Azərbaycan, İngiltərə, Rusiya, Fransa, Almaniya, Hüseyn Naxçıvanski, Səməd bəy Mehmandarov, Əliağa Şıxlınski, Şahverdi xan Ziyadxanov

## *Giriş*

Rus imperiyası hər tərəfi müsəlman dövlətləri ilə əhatə olunmuş azərbaycanlılara "etibar" etmədiyi üçün əsgərliyə cəlb etmirdi. Buna baxmayaraq, zəngin mülkədarların övladları romantik bir həyat xatirinə həvəslə hərbi xidmətə can atırdılar.

1914-ci il 28 iyunda sübh vaxtı şahzadə Frans Ferdinad arvadı Sofi fon Qorenberqlə Serbiyanın Latın körpüsündə saat 10-da tələbə Qavrilo Prinsipin tapanca ilə açdığı iki güllə ilə qətlə yetirildi.Qavrilo Prinsipin açdığı bu iki güllə dünyada gözlənilməyən dəhşətli əks-səda yaratdı. Bu hadisə bloklara bölünmüş dövlətlərin dünyanın bölüşdürülməsi uğrunda müharibəyə başlamasına bəhanə, Almaniya, İngiltərə və Fransadan çox geridə olduğu üçün dünyanı yenidən bölmək məqsədi ilə alman və ingilis imperializmi arasında müharibənin başlamasına isə səbəb oldu. Fransa dövləti hərbi və iqtisadi cəhətdən Almaniyadan zəif olduğunu anlayırdı. Bununla belə onların baş qərargahı Elzas və Lotaringiyada aktiv olmağa çalışırdı.

Müharibəyə başlamaq ərəfəsində Antanta dövlətləri 11 milyondan artıq, Almaniya və Avstriya-Macarıstan isə 6 milyondan çox əsgər cəlb etmişdilər. Antanta dövlətləri 231 piyada, 49,5 süvari diviziya ayırmışdı. Almaniya müttəfiqləri ilə birlikdə 171,5 piyada, 22 süvari diviziyası toplamışdı. Döyüşdə əsas rolu piyadalar oynayırdı. Ümumi döyüşçülərin 75%-ni piyadalar, 15%-ni artilleriya, 8%-ni süvarilər, 2 %-ni mühəndislər və yardımçılar təşkil edirdi.

**1. 1914-1915-ci illər hadisələri**. 2-avqustda Qərbi Avropada müharibəyə başlayan Almaniyanın məqsədi Lüksemburqa girib, ordan hərbi qüvvələrini Fransaya yeritmək idi.Belçika dövləti alman qoşunlarını öz ərazisindən Fransaya buraxmaq istəmədi. Bundan sonra almanların hərbi qüvvələri 4 avqustda səhər tezdən xaincəsinə Belçikanın Lej qalasına hücum etdilər. Lej qalası almanlara qəhrəmancasına müqavimət göstərdilərsədə güclü rəqibin hücumunun qarşısını ala bilmədilər. Lej qalası 16 avqustda təslim oldu. 20 avqustda Belçikanın paytaxtı Brussel təslim oldu [11, s. 16]. Zəif Belçika ordusu Antverpenə atıldı. Bundan sonra bütün Belçika almanların əlinə keçdi.Almanların planına görə əvvəlcə, 6-8 həftə ərzində Fransanı təslim olmağa məcbur etmək, sonra bütün qüvvələri Rusiyaya qarşı

yeritmək və Avstriya-Macarıstan ordusunun köməyilə müharibəni qələbə ilə qurtarmaq lazım idi.Sərhəd vuruşmasında (21-25 avqust) fransız qoşunları və kiçik ingilis ekspedisiya ordusu məğlubiyyətə uğrayaraq Parisə və Marna çayına doğru geri çəkildilər. Lakin bu zaman Şərqdə rus orduları (baş komandan böyük knyaz Nikolay Nikolayeviç) Şərqi Prussiyaya soxuldular; alman komandanlığı Qərb cəbhəsindən Şəlq cəbhəsinə 2 bütöv korpus və1 yarım korpus göndərməyə məcbur oldu [1, s. 181]. Antanta dövlətlərində artilleriyanı 12134 yüngül və 1913 ağır silahlar təşkil edirdi. Ən güclü hərbi dəniz qüvvələri ingilislərin əlində idi. Aviasiya hər iki tərəfdə azlıq təşkil edirdi. Rusiya 244, Fransa 138, İngiltərə 232, Avstriya- Macarıstan 65 döyüş təyyarəsinə malik idilər.

25avqustda "sərhəd döyüşü" adlanan Şaldey və Mozolem çayları arasındakı 300 kilometrlik döyüş zonasında müttəfiqlər məğlub oldular. Birinci alman ordusunun generalı fon Kluk Parisə hücum etdi [11, s. 17]. 2 sentyabrda Fransa hökuməti paytaxtı atıb Bordo şəhərinə köçdü. Şərqi Avropada əməliyyat meydanında rusların Şimal-Qərb cəbhəsi qoşunları rəhbərliyin bacarıqsızlığı üzündən məğlubiyyətə uğradı [1, s. 183]. Hər iki tərəf xeyli itki verib müdafiə mövqeyinə çəkildilər. Müharibənin ilk günlərində almanların tərəfdarlarının zəifliyi hiss olunurdu. Bitərəf mövqe tutan İtaliya almanlar tərəfə keçdilər. Bu zaman alman ordusu Belçika və Fransaya daxil olanda rus ordusu Şərqi Prussiyaya daxil olub Keniqsberq və Allenşteynə hücum etdilər. Rus ordusu Bu döyüşə tam hazır deyildi.

Lakin Şərqi Prussiya döyüşündə rus ordusu böyük döyüş qabiliyyəti göstərdi. Bu döyüşlərdə azərbaycanlı süvarilər də iştirak edirdilər. Məşhur Polyak generalı Anders Qərb cəbhəsində süvari korpusunun komandanı Hüseyn xan Naxçıvanskinin tabeliyində polyaklardan ibarət süvari diviziyasının komandiri idi. Müharibənin ilk 20 günündə müharibəni təsvir edən general Yevgeni Barsukov general Hüseyn xan Naxçıvanski haqqında yazırdı: "Bir döyüşdə Xan Naxçıvanskinin süvariləri 5 batalyonu, 2 eskadronu, 12 topu İnster çayının o tərəfinə ataraq, 2 ədəd top və 4 qutu mərmi ələ keçirmişdi.İnster çayından Meşken, Kraupişken və Lauqaden yaxınlığındakı bərələr tutulmuşdu. Bu müharibədə general Naxçıvanski düşmənə ağır zərbələr vurmuşdu. O, 1914-cü ilin avqustunda Şərqi Prusiyaya yürüşdə iştirak etmişdir. O zaman general-leytenant Hüseyn xan on minlik rus süvarilərinin ən yaxşı hissələrinə - birinci, ikinci və üçüncü qvardiya süvari diviziyalarına komandanlıq edirdi. 15-21 avqust məşhur Qumbien döyüşlərini qələbə ilə başa çatdıran Hüseyn xan Naxçıvanski süvariləri, həm də birinci ordunun kəşfiyyat əməliyyatlarını aparmış və döyüşdə onlara kömək etmişdi. Az sonra Hüseyn xanın qvardiya süvariləri Kraupişkel şəhərinin ətrafında 8 kilometr məsafədə özünə müdafiə tutmuş almanlarla döyüşə girir.

1915-ci ildə Cənub Qərb cəbhəsində II-süvari diviziyasının komandiri olan Hüseyn xan Naxçıvanski alman cəbhəsinin yarılmasında fərqlənmiş, sonralar Zaqafqaziya cəbhəsinin komandiri təyin edilmşdir.

Birinci dünya müharibəsində iştirak edən azərbaycanlılardan biri də gəncəli Şahverdi xan Ziyadxanov idi. O, 3 oktyabr 1969- cu ildə Gəncədə mülkədar ailəsində anadan olmuş, ilk təhsilini evdə xüsusi müəllimdən almış, sonra isə I-dərəcəli Gəncə gimnaziyasını və II-dərəcəli Gəncə süvari yunker məktəbini bitirmişdi. Hərbi xidmətə 1890-cı ildə I-dərəcəli müstəqil təyinatlı kimi 44- cü Nijqorod draqun alayının III-eskadronundə başlayır.

19 iyul (1 avqust) 1914-cü ildə Birinci dünya müharibəsi başlayanda Şahverdi xan Ziyadxanov könüllü Rusiya İmperiyası sərhədlərində atlı polkuna göndərilməsi haqda qubernatordan xahiş etmişdir. 1914-cü ildə vitse qubernator polkovnik knyaz Ovalenski Şahverdi xan Ziyadxanovun raportunu Baş Qərargaha göndərmiş və ona aşağıdakı məzmunda xasiyyətnamə vermişdi: "Şahverdi xan Ziyadxanov yüksək keyfiyyətlidir, kart oynamaz, xidməti vəzifəsinin öhtəsindən layiqlə gəlir, hərbi xidməti sevir. Bununla bərabər qeyd etməyi özümə borc bilirəm ki, Şahverdi xan zabit kimi mənə ən yaxşı tərəfdən Nijeqorod polkunda eyni eskadronda birgə qulluqdan tanışdır."

1914-cü il 26 sentyabrda Şahverdi xan azərbaycanlı kimi Qafqaz atlı diviziyasının Tatar atlı polkuna xidmətə qəbul olunur. Cənub-qərb cəbhəsində Karpat dağlarında, Qalitsiya, Prut və Dnestr çayları bölgəsində hərbi döyüşlərdə iştirak etmişdir. Sonralar 1916-cı il 14 fevralda II-dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdur. Heç bir töhmət və cəza almamışdır**.**

1908-ci ildə Türkiyədəki pantürkizm və panislamizm ideyalarını təbliğ edən gənc türklər hərəkatı başladı. Birinci Dünya müharibəsi başlayan zaman hakimiyyətdə olan Ənvər paşa, Tələt paşa və Camal paşa üçlüyü Türkiyəni Birinci dünya müharibəsində (1914-1918) Almaniya tərəfində vuruşmağa vadar etdilər" [3, s. 395]. Nəticədə 1914-cü ilin oktyabrında Türkiyə Almaniya tərəfindən müharibəyə qoşuldu. Rusiyada sosialist inqilabının qələbəsindən sonra Türkiyə müharibədən çıxmaq imkanı əldə etdisədə,"Gənc Türklər" hökuməti Sovet Rusiyası ilə müharibəni bir il də davam etdirdi. Birinci dünya müharibəsi dövründə 1914-cü ilin 29 və 30 oktyabrında Türk hərbi dəniz donanması komandanı alman admiralı Suşon Ənvər paşanın əmri ilə Sevastopol, Odessa, Feadosiya və Novorosiyski şəhərlərini atəşə tutdu. Buna cavab olaraq Rusiya 1914-cü il 2 noyabrda Türkiyəyə müharibə elan etdi. Osmanlı dövləti Birinci dünya müharibəsinə girməsindən az sonra 1914-cü il 14 noyabrda "cihad" elan etdi. Bunda məqsəd Osmanlı sərhədləri xaricində yaşayan 200 milyondan artıq müsəlmanları, o cümlədən Rusiyadakı türk-müsəlman xalqlarını Antanta dövlətlərinin zülmündən qorumaq idi. Türkiyənın cihad çağırışına Türkiyə xaricində, Antanta ölkələrinin nəzarətində və müstəmləkələrində yaşayan müsəlmanlardan qoşulanlar oldu. Birinci dünya müharibəsində Osmanlı ordusunun tərkibində azərbaycanlı gənclər də vuruşurdular. Könüllü olaraq Osmanlı ordusuna qoşulan, Antantaya qarşı vuruşan, şəhid olan və ya qazi olan bu gənclər Çanaqqala döyüşlərində iştirak etdilər. 1914-cü il noyabrın ortalarında Türkiyənin III-ordusu Ərzurum-Sarıqamış istiqamətində hücuma keçdi. Həmin ilin dekabrında türk qoşunları Zaqafqaziyaya (Tiflis istiqamətində) hücumu davam etdirməyə cəhd etsələr də Sarıqamış əməliyyatında (1914-1915) rusların Qafqaz ordusu tərəfindən darmadağın edildi [1, s. 182]. Türk qoşunları Batuma daxil oldular və Acaristana qədər irəlilədilər. Acarlar Türk ordusunu sevinclə qarşıladılar. Bu döyüşdə Ənvər paşa orduya komandanlıq edirdi. Türk ordusunun əsas vəzifəsi rusların dayaq məntəqəsi olan Qars və Sarıqamışı almaq idi. Ənvər paşa düşmənə zərbə vurmaq üçün soyuq qışda hərbi texnikanın, azuqənin az olduğu bir vaxtda Sarıqamış əməliyyatına qərar verdi.Ruslar bu müharibəyə çox yaxşı hazırlaşmışdıları; kürk, yapıncı, keçə çəkmələri, böyük kalpak və qulaqlıqlar başı və qulaqları qoruyurdu. Heyvanları (atları) da qüvvətli və baxımlı, mükəmməl idi [12, s. 16]. 1914-cü il 21 dekabrda türk ordusu Sarıqamışda məğlub oldu [14, s. 48]. Məğlubiyyətin səbəbi H.Tuğac belə deyir: "Harbe başlandığı sıralarda 3 ünlü Ordu için İstanbuldan kışlık elbise, silah, cebhane və başka luzumlu gerecləri Trabzona getirmekde olan iki büyük vapurumuzun (gəmimizin) "Mahmut Şevket Paşa" və "Akdeniz" yolda bir rus torpedo tarafindan yakalanarak götürüldüyünü Sibiriyada İrkutskidə qarnizondaki esir arkadaşlardan ögrenmişdim. Demək bu kış diyarında kış harbi yapan ordumuzun böylə nöqsan elbise ve techizatla kalmalarının sebebi bu imiş.Vapurlarda iki de uçaq varmış" [15, s. 17]. Qışın sərt keçməsi Türk ordusu üçün gətirilən qış paltarları, silah və iki ədəd təyyarəni rusların əlinə keçməsi onun məğlubiyyətinə səbəb oldu. Bu döyüşdə Türk ordusu 90 min itki verdi. Onun 60 mini soyuqdan donub ölmüşdü.1914- cü il Birinci dünya müharibəsi Türkiyənin Şərq hissəsi rus ordusunun işğalına,Qars və Ərzurum əhalisi rus və ermənilərin qırğınına məruz qalmışdı. Belə bir vaxtda qardaş köməyinə yenə qardaş gəldi. Belə ki, Bakıda yerləşən "Azərbaycan xeyriyyə cəmiyyəti" Türkiyənin Şərq vilayətlərindəki əhaliyə yardım etməkdə idi [6, s. 176].

Rusiyanın hərbi məktəblərinə daxil olub zabit kimi Rusiyanın ordularında xidmətə gedən azərbaycanlılardan biri də Cahangir bəy Əlibəy oğlu Kazımbəyli idi. O, 15 mart1894-cü ildə Gəncə şəhərində dünyaya gəlmişdir. İlk təhsilini Gəncə gimnaziyasında alıb Sonra

Sankt-Peterburq Hərbi Akademiyasını bitirib, Birinci dünya müharibəsində Rusiya ordusunda vuruşub. Azərbaycan Demokratik Respublikasının Milli Ordusu yaradılanda Gəncəyə dönmüş, alay komandiri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən müstəqilliyi əlindən alınanda onun düşmənlərinə qarşı mübarizəyə qalxan Cahangir bəy peşəkar hərbçi idi. Gəncə üsyanı yatırılandan sonra İrana mühacirət etmişdi. Az sonra marşal Yuzef Pilsudskinin dəvətilə Varşavaya köçən Cahangir bəy Polşa ordusunda divizya komandiri olur. "Promotey" cəmiyyətində istilaçı ruslara qarşı mübarizədə həyat yoldaşı Valiyə xanım Xoyski ilə birgə çalışmış, Azərbaycan dilində qəzet və jurnal nəşr etmiş, "Azəri-türk" dərnəyini yaratmışlar. Böyük Vətən müharibəsi vaxtı Polşa işğal olunanda əsir düşmüş, Sovet əsirliyindən qaçıb əvvəl Almaniyada, sonra isə İtaliyada yaşamışdır. Əllinci illərdə yenidən İstanbula gəlib, ağır güzəran keçirdiyindən Almaniyaya köçmüşdür. Ömrünün sonuna kimi "Azadlıq" radiosunda əməkdaşlıq edib.

Birinci dünya müharibəsində döyüşən ilk təyyarəçimiz Fərrux ağa Qayıbov olmuşdur. O, atasını uşaq ikən itirdiyi üçün əmisi Səməd ağa Qayıbovun himayəsində böyüyür,anadan olduğu Salahlı kəndində beşsinifli Rus-Tatar (Azərbaycan) məktəbində təhsil alır və sonra Tiflis Kadet Korpusunda təhsilini davam etdirir və Peterburqdakı üçillik Konstantinov Artileriya Məktəbinə daxil olub oranı müvəffəqiyyətlə bitirib podporuçik rütbəsi alıb, Aleksandropoldakı 39-cu artileriya briqadasında xidmətə başlayır. Sonra məşhur "İlya Muramets" 16-cı ekipajına qəbul olunur. 1914-cü ildə Birinci Dünya müharibəsi başlayanda Qərb cəbhəsindəki on birinci aviasiya korpusuna ezam olunur. Birinci dünya müharibəsində onaltıncı hava gəmisinin artileriya zabiti poruçik Qayıbov Qərb cəbhəsi qərargahının tapşırığı ilə sentyabrın 12-də Boruniya hücum etmiş, intendant və artilleriya anbarlarını, aerodromu, 89-cu alman-ehtiyat diviziyasının mövqelərini bombardman etmişdir [12, s. 10].

1915-ci il kampaniyası.1915-ci il müharibənin ağırlığı Rusiyanın üzərində idi. Rusiya Fransa və Böyük Britaniyanın tələbi ilə Almaniyaya (Şərqi Prusiyada) və Avstriya-Macarıstana (Karpatlarda) qarşı döyüşlərdə döyüşməli idi. 1915-ci ilin yanvar mart aylarında Şərq cəbhəsində aktiv döyüşlər gedirdi.

22 mart 1915-ci ildə ruslar Avstriyanın Peremış qalasında 120 min döyüşçüsü olan qarnizonu tutdular. Bundan sonra Avstriya-Macarıstanın işğalı qorxusu yarandı. 1914-cü ildə müharibə başlayanda rus ordusunda 400 min tüfəng çatmırdı. Sentyabrda bu rəqəm 800 minə çatdı. "1915-ci ildə döyüş meydanında 100 min əsgərin silahı yox idi. 1915-ci il 27 mayında Bois qərargah rəisi general Yakuşkeviç hərbi nazir Suxomlinova yazmışdı: Dünən polklardan birinin sahəsində almanlar bizə 3 min ağır güllə atdılar, biz isə ancaq 100-nü atdıq [11, s. 52]. Sentyabrın 5-də imperator II-Nikolay rus qoşunlarının ali baş komandanı oldu. (Baş qərargah rəisi general Alekseyev idi) 1915-ci ilin aprel ayında Qərb cəbhəsində almanlar ilk dəfə xlorlu kimyəvi silahdan ruslara qarşı istifadə etdilər. 1915-ci ildə Antanta İtaliya dövlətini öz tərəfinəçəkdi. İtaliya yayda Avstriya-Macarıstana müharibə elan etsədə, hücum cəhdi baş tutmadı. 21 sentyabrda Bolqarıstan Almaniya tərəfə qoşuldu. Bundan sonra Bolqarıstan Avstriya-Macarıstan ordusunun üstün qüvvələri Serbiyaya hücuma keçdilər. Bu hücumda gücü çatmayan Serb əsgərləri Albaniyaya geri çəkilməyə, sonra isə İtaliya ərazisinə keçməyə məcbur oldular. Müttəfiqlərin Solonikiyə desant çıxarmaq yolu ilə Serbiyaya kömək cəhdi nəticə vermədi [1, s. 183].

"1915-ci ilin 15 fevralında azərbaycanlı georgi ordenli podpolkovnik Feyzulla Mirzə Qacar şəxsi təşəbbüsü ilə sıralarında yalnız bir zabit olan Ulan-kazak alayının 4 bölüyünə komandanlığı öz üzərinə götürmüşdü. Güclü tüfəng və pulemyot atəşindən məharətlə istifadə edən cəsur komandir Feyzulla Mirzə Qacar Brin kəndini düşməndən itkisiz almışdı. Belə mühüm əhəmiyyətli döyüş sahəsini düşməndən təmizlədiyinə görə igid komandir Feyzulla Mirzə Qacara III- dərəcəli "Müqəddəs Vladimir" (Qılıncla birgə) və II-dərəcəli "Müqəddəs Anna" (qılınc və polkovnik rütbəsi verildi" [10].

İngilislər Dardanel məsələsini öz dəniz qüvvələrilə, piyadaların olmaması şərtilə işğal etmək istəyirdi. 15 fevralda ingilis artileriyası gəmidən ibarət idi. 1915-ci il 25 apreldə İngilislərin desant korpusu general Hamiltonun komandanlığı ilə Qalipol yarımadasına cənubdan desant çıxardı. Bu desant çıxarma əməliyyatı Türkiyə üçün gözlənilən idi. Türklərin bu ərazisini alman generalı Liman fon Sendere qoruyurdu. Bir il davam edən Dardanel əməliyyatı nəticə vermədi və desant qoşunları 1915-ci ilin sonunda Salonikiyə aparıldı [1, s. 183]. Rus qoşunları Türkiyədə Van və İranda Urmiya gölü rayonunu türk qoşunundan azad etdilər. 1914-cü ildə müharibə başlayanda Türkiyənin şərq hissəsi rus ordusunun işğalına, Qars və Ərzurum əhalisi Rus və Ermənilərin qırğınına məruz qalmışdı [6, s. 176]. Bu zaman Azərbaycanda təşkil olunmuş xeyriyə cəmiyyəti Türkiyənin vilayətlərindəki əhaliyə yardım edirdi.Bütün çətinliklərə sinə gərən Türkiyə Birinci dünya müharibəsinin axırında Qafqaz cəbhəsində müvəffəqiyyət qazandı.

Birinci dünya müharibəsində hərbi sərkərdə Səməd bəy Mehmandarovun xidmətləri əvəzsiz idi. Onun artileriya atəşinin avtomatlaşdırılmasında və səhra toplarının yüngülləşdirilməsindəki xidmətləri hərb elmində o zamanlar üçün xüsusi yeri vardı. Podpolkovnik S.Mehmandarov ilk dəfə döyüşə 1900-cu ilin 3 avqustunda Uzaq Şərqdə çinlilərə qarş döyüşdə iştirak etmişdi.

1914-cü il 11 dekabrda II-Qafqaz ordu korpusunun komandiri təyin olunan Səməd bəy Mehmandarov Sane çayı sahilində, Prasnişa, Xolma və Vilno yaşayış məntəqələri uğrunda alman döyüşçüləri ilə ağır döyüşdə iştirak etdi. Müharibə davam etdiyi zaman onun rəhbər olduğu korpus düşmənə ağır zərbələr endirdi, bir ədəd belə düşmənə top itkisi vermədi. 1914-cü ilin 27-29 aprelində apardığı müvəffəqiyyətli döyüşdə göstərdiyi qəhramanlığa görə III-dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olundu. Birinci dünya müharibəsi dövründə general Səməd bəy Mehmandarov alman diviziyalarını bir neçə dəfə ciddi ağır məğlubiyyətə uğratdı. Bu müharibə dövründə rus ordusunda yeni bir silah olan ağır səhra toplarının vəzifələrə uyğun yerləşdirilməsi mahir topçu S.Mehmandarovun şəxsi təşəbbüsü nəticəsi idi. Müharibədə göstərdiyi misilsiz qələbələrə görə Səməd bəy 1915- ci ilin 22 martında tam artileriya generalı rütbəsinə layiq görüldü. Bundan öncə O,1915-ci il 2 yanvarda II-dərəcəli "Müqəddəs Vladimir" (qılıncla birgə) ordeninə və 1915-ci il 9-10 sentyabrda İvanqorod şəhəri uğrunda apardığı döyüşlərə görə brilyantla bəzədilmiş "Georgi Siyahı" ordeni ilə təltif olundu. Səməd bəy döyüşlərin ən qorxulu yerlərində misilsiz soyuqqanlı və cəsurluğu rus ordusunda məşhur olmuşdu**r.** Bu zaman general Mehmandarov general İrmanın komandanlığı altında III-Qafqaz ordu korpusunun tərkibinə daxil olan 21-ci diviziyanın komandiri idi. "Kozennitsanı ələ keçirənə və o qədər də böyük olmayan plasdarmda (döyüş meydanında) möhkəmlənə qədər III-Qafqaz korpusunun diviziyaları birgə səylərlə hücumu üç dəfə inkişaf etdirməyə cəhd etmişdilər. Bu döyüşdə alman artileriyasının sayca artıq qüvvələrinin olmasına baxmayaraq general Səməd bəy Mehmandarovun diviziyası fərqləndi" [12, s. 239].

1915-ci ilin 5 oktyabrında Bolqarıstan müharibəyə girdi. 1915-ci il döyüşləri heç bir imperialist dövlətinə qələbə qazandırmadı. Aviasiyadan istifadə kütləvi artmağa başladı. 1915-ci ildə III-Kuban-Kazak piyada diviziyasında komandir olan Əmənulla xan Qacar aprelin 25 də polkovnik rütbəsinə layiq görülmüşdü. O, 1916-cı ilin noyabr ayında Marxonovka kəndi uğrunda süngü döyüşündə düşmən səngərini işğal edir və artileriya atəşi gücü ilə düşmənin çox saylı əsgər və zabitini məhv etmişdir.

Birinci dünya müharibəsi başlayanda topçuluq sənətində yenilikləri ilə məşhur olan general Əliağa Şıxlinski Petroqradın artilleriya ilə müdafiəsinə rəhbərlik edirdi. Sonralar Qərb cəbhəsi artileriya qoşunlarının rəisi, 1917-ci ilin sentyabrında onuncu ordunun komandiri oldu [4, s. 551]. Onun "Şıxlinski üçbucağı", "Şıxlinski formulu" adlı hərbi yenilikləri topçu zabitlərin hazırlanmış dərsliklərinə daxil edilmişdi. Şıxlinskinin bu yenilikləri Fransa, Avstriya, Norveç, İsveç və sair dövlətlərin hərbi məktəblərində dərsliklərdə istifadə olunurdu.

Tanınmış general- mayor professor Yevgeni Barsukov onun haqqında yazırdı: General Əliağa Şıxlinskinin adı böyük nüfuza və rəğbətə malik olmuşdur. O, təkcə rus topçularına deyil, Avstriya və Fransa ordusunun geniş dairəsində də çox yaxşı tanınmaqla və son dərəcə məşhurlaşmışdı [13, s. 286]. Onu “artileriyanınAllahı”adlandırırdılar.

**2. 1916-cı ildən sonra müharibə.** 1916–cı ilin əvvəlində Antanta dövlətləri, Almaniya və tərəfdarları ağır texniki bomba təchizatında eyni idilər. 1916-cı ildə İngiltərə ətrafına xüsusi hərbi tərəfdar topladı. İngiltərə və Fransaya, Kanada, Yeni Zellandiya, Avstraliya, Hindistan və Afrika onlara əla hərbi heyət göndərdilər. Müharibə dövründə İngiltərəyə müstəmləkələri və ondan asılı dövlətlər 3 milyon əsgər və bundanəlavə Misirdən bir milyon insan Qalipoli və Süveyş kanalında torpaq işlərinə cəlb edilmişdilər. Müharibədə neytral mövqe tutan İsveçrə Almaniyaya dəmir filizi və meşə materialları göndərirdi. Norveç, Danimarka, İsveçrə və Hollandiya ərzaq və xammalı xarici dövlətlərdən alıb Almaniyaya satırdılar.Almanlar 21 fevralda dar bir sahədə Braban, Verden və Ornamda bir neçə saatda 2 milyon güllədən istifadə etdilər. Bu hücum fransızlar üçün gözlənilməz idi. 1916-cı il 25 fevralda almanlar Duomonu işğal edib, Fransanın müdafiəsini yardılar. Bu ağır vəziyyətdə Fransa komandanlığı fəlakətin qarşısının alınması üçün təcili tədbir gördü. Ölkənin hər yerindən Verdenə hərbi hissələr gətirildi. Buna baxmayaraq Verdenə gələn yollar bağlanmışdı. Fransa komandanlığı bir neçə gündə bura 190 min yeni əsgər və 25 min ton hərbi sursat və başqa mallar gətirdi. Bununla Verden xilas olundu [11, s. 71].

Rus ordusunda xidmətdə olan azərbaycanlılardan Qalib bəy Vəkilov 1910-cu ildə Moskvadakı Alekseyev hərbi-texniki məktəbini bitirib, Birinci dünya müharibəsində Qərb cəbhəsinin mühəndis alayında döyüşə başlamışdı. “Molodeçniy şəhəri uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə podpolkovnik Qalib bəy Vəkilov ikinci dərəcəli “Müqəddəs Georgi” ordeni ilə təltif olunmuşdur” [13, s. 105]. Hərbi-texniki mütəxəssiz olan Qalib bəyin ən əsas vəzifəsi düşmənin qəfil hücum edəcəyi yerlərin möhkəmləndirilməsi, səngərlərdə piyada və tank əleyhinə mərmilərin dəqiq yerləşdirilməsinə rəhbərlik idi. Qalib bəy Vəkilovun babası topoqraf general-mayor İbrahim ağa Vəkilov idi. O da rus ordusunda xidmətdə olmuşdu.

Azərbaycanın igid, ləyaqətli oğlu Teymur bəy Novruzov Mirzə Nağı bəy oğlu 1880-ci ildə Yelizavetpol qəzasının Qovlar kəndində anadan olub. Tiflis kadet korpusunda təhsil almış, süvari zabiti kimi Birinci dünya müharibəsində iştirak etmişdir. Onun atası general-leytenant Hacı Mirzə Nağı bəy Rus ordusunun tanınmış sərkərdələrindən idi. General Teymur bəy Novruzov Azərbaycanda Şura hökuməti bərqərar olanda əvvəlcə Almaniyada mühacirətdə oldu, 1926-cı ildə isə bolşevik təzyiqindən Fransanın Nitsa şəhərinə mühacirət etdi.

1916-cı il kompaniyasında Cənub-qərb cəbhəsində rus qoşunlarının (baş komandan Brusilov) hücumunun mühüm əhəmiyyəti oldu. Bu hücumda cəbhə yarıldı və Avstriya-Macarıstan orduları darmadağın edildi [1, s. 183]. Bu müharibənin iştirakçılarından biri də ştabs kapitan Tərlan Əlyarbəyov idi. O, 1916- cı ildə Rumıniya sərhəddinə kimi uzanan 400 kilometr cəbhə boyu hücuma keçib, düşmənin müdafiə xəttini yarmışdır. Bu döyüşdə Tərlan bəy sinəsindən ağır güllə yarası almışdı.

1916-cı ildə Şimal dənizində dünya hərb tarixində ən böyük dəniz döyüşü ingilis və alman dənizçiləri arasında oldu. Hər iki dövlət rəqibinə ilk zərbə vurmağa cürət etməyib, hərə öz bazasında gözləmə mövqeyində idi [11, s. 84]. Nəhayət 1916-cı ildə alman dənizçiləri ingilislər tərəfindən yaradılmış blokadadan çıxmaq üçün rəqiblərinə ağır zərbə endirmək qərarına gəldilər.

Çox saylı kiçik Avropa dövlətləri bitərəf mövqe tutsalar da, onlar silah ticarəti, strateji xammal və ərzaq malları ticarətindən xeyli gəlir götürürdülər. Skandinaviya ölkələri (İsveç, Norveç, Danimarka) sənayeçiləri və tacirləri hər iki döyüşən tərəfə hərbi ləvazimat satmaqla

əla yaşayırdılar [2, s. 83]. 1916-cı il kompaniyasının nəticəsində Antanta dövlətləri rəqiblərini məhv edə bilmədilər. Amma müəyyən qədər Antantanın üstünlüyü var idi. Kütləvi insan qırğını və zəhmətkeşlərin vəziyyətini kəskin şəkildə pisləşməsi müharibə əleyhinə çıxışların və inqilabi hərəkatın getdikcə güclənməsinə səbəb oldu [1, s. 184].

1917-ci il kompaniyası.Rusiya fevral burjua demokratik inqilabı nəticəsində çar II Nikolay devrildi. Xalq kütlələri çörək, sülh və azadlıq tələb edirdi, lakin hakimiyyət başınagələn rus imperialist burjaziyasının mənafeyini müdafiə edən Müvəqqəti hökumət müharibəni davam etdirirdi [1, s. 180]. Qaçaq Məmmədqasım xatirələrində deyirdi: “Avropada əslən Borçalıdan olan İsrafil Yadigarlının alayı ilə birləşdik. Bizim alaydan başqa Gürcü, Çərkəz və Dağıstan bölükləri də vardı, Qabaqtəpəli Nəbi dayının oğlu İsrafil də orduda “yüzbaşı” rütbəsində idi.İsrafil bəy “Dikaya diviziya”nın Azərbaycan süvari alayında xidmətdə idi. 1916–cı ilin yanvarında İsrafil bəy Rumın cəbhəsindəki döyüşdə iştirak edirdi. Həmin ilin aprel ayının 29-da imperatorun əmrilə İsrafil bəy Yadigarova rotmistr rütbəsi verildi. 1917-ci ilin noyabrında vətəni Borçalıya qayıtdı. 1918-ci ilin payızında Gürcüstan-Ermənistan (Lori nahiyəsinin torpaqlarına görə gedən) döyüşlərində gürcü ordusunun sıralarında daşnaqlara qarşı döyüşdə iştirak etdi [13, s. 153].

1917-ci ildə 300 il hökmranlıq etmiş Romanovlar sülaləsinin taxtdan salınıb, yerinə Kerenski keçib Müvəqqəti hökumət qurmuşdu [7, s. 33]. 1917-ci il iyulda Kerenski yorulmuş rus ordusunu Vilen və Riqa istiqamətinə göndərdi. Müvəqqəti hökumət bu hücumu “sülh uğrunda hücum” adlandırırdı. Artıq Antanta hökumətlərinə aydın oldu ki, rus ordusu ingilis-fransız imperializmi üçün döyüşmək istəmir. 1918-ci ildə Sovet Rusiyası Brest sülh şərtlərini imzalayan, sonra isə Rumıniya ilə sülh bağlayan Almaniya Qərb cəbhəsinə güclü qoşun yeritdi. Bu zaman Avstriya-Almaniya döyüşçüləri Brest sülh şərtlərini pozub, Ukrayna, Belarusiya və Baltik yanı ölkələrin ərazilərini işğal etdilər. 1917-ci il 3 dekabrda Almaniya Brest-Litovskidə danışıqlara başladı. 15 dekabrda Sovetin hökumətinin yeni və gücsüzlüyündən istifadə edən Almaniya Sovet hökumətindən Polşa, Litva, Latviyanın və Belarusiyanın bir hissəsini, Almaniya ilə istədiyi şərtlərlə sülh bağlamaq, yada müharibə etməyi tələb edirdi [11, s. 176]. Vəziyyətin ağırlığı gənc Sovet hökumətini güclü, yırtıcı, qorxulu alman dövləti ilə razılaşmağa məcbur etdi. Sülhün bağlanması bolşevik partiyası daxilində narazılıqlara səbəb oldu.

1918-ci ilin əvvəlində hər iki tərəfdə hərbi- siyasi şərait tamam kəskinləşdi. Rusiyada yeni qurulmuş Sovet Rusiyası müharibədən imtina edib blokdan çıxmışdı. Digər müharibə edən dövlətlərdə inqilabi böhran yaranmışdır. Hər iki tərəf müharibəni tezliklə qurtarmağa təhrik edirdi; bu vaxt Antanta və Almaniya blokunun qüvvələri təxminən bərabər idi, lakin tezliklə ABŞ-ın iri qoşun birləşmələrinin Avropaya gəlməsi gözlənilirdi. Buna görə də Almaniya Antanta üzərində sürətli qələbə çalmağı bir vəzifə kimi qarşısına qoymuşdu [1, s. 184]. Sülh şərtləri ağır olsa da Sovet Rusiyası Türkiyə ilə müttəfiq olan alman imperializminin ağır şərtlərini qəbul edib, böyük tarixi əhəmiyyəti olan Brest sülh şərtlərini qəbul etdi [11, s. 178]. Alman imperialistləri Şərqi Avropada böyük əraziləri ələ keçirdikdən sonra onlar müharibədə qalib gəlib Rusiya və Rumıniyanı “alman sülhünə” bağlayacaqlar. 1918-ci ilin yazında, Antanta Qərb cəbhəsində 181 diviziya, almanlar isə 193 diviziyaya malik idilər.Antanta 15751 müxtəlif ağır silahlara, Almaniya isə 15880 ağır silaha malik idi [11, s. 194]. İngilislər üçün Birinci dünya müharbəsi onların varlıqları dövründə ən böyük müharibə sayıla bilərdi. 1917-ci ilin sonunda onların 5 milyon əskəri döyüşürdü.

## *Nəticə*

Cəbhədə 9,5 milyon insan həlak oldu. 20 milyon insan yaralandı, onun 3,5 milyonu şikəst olmuşdu. Bu müharibədə iştirak edən dövlətlər təxmini hesablamaya görə qızılla 360

milyard dollar xərcləmişdi [1, s. 184]. Bütün bu maliyyənin çətinliyinin ağırlığı xalqın üzərinə düşürdü.

ƏDƏBİYYAT

1. Azərbaycan Sovet Ensiklopediyası. IIcild. Bakı, 1978.
2. Azərbaycan Sovet Ensiklopediyası. VIII cild. Bakı,1984.
3. Azərbaycan Sovet Ensiklopediyası. IX cild. Bakı,1986.
4. Azərbaycan Sovet Ensiklopediyası. X cild. Bakı, 1987
5. Azərbaycan tarixi. Vcild. Bakı, 1993.
6. Baykara Hüseyn. "Azərbaycan istiqlal mücadiləsi tarixi". Bakı,1992.
7. Bayramov Xanlar. "Qaçaq Məmmədqasım. Bakı, 2006.
8. Документы из архива царского и Временного провительства 1873-1917г. Серия III.Т-VI, стр 144. Москва, 1938.
9. İsmayıl Mahmud "Azərbaycan tarixi. Bakı, 1997.
10. "Kaspi" qəzeti. 1916- cı il 26 fevral.
11. Кабанов П.Ф. Перваямироваявойна.Москва, 1964.
12. Nəzirli Ş. "Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux ağa Qayıbov". Bakı, 2007.
13.Nəzirli Ş. "Güllələnmiş Azərbaycan generalları". Bakı, 2016.
14. Rusiya dövlət arxivi F 407 D.2254 V 48.
15. Tuğac Hüsaməddin "Bir nəslin dramı". Ankara, 1966.

УДК 94 (479.24)

*Н.А.Аллахвердиев, Р.А.Абдуллаева*
*Гянджинское отделение НАНА*

## АЗЕРБАЙДЖАНСКИЕ ОФИЦЕРЫ В ПЕРВОЙ МИРОВОЙ ВОЙНЕ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Англия, Россия, Франция, Германия, Гусейн Нахчыванский, Самед бек Мехмандаров, Алиага Шихлинский, Шахверди Хан Зиядханов

Во времена правления царской России мусульманам не разрешалось заниматься военной работой. Несмотря на это, дети помещичьих сословий охотно поступали в военные училища и учились. Когда началась Первая мировая война, в боях сражались более трехсот азербайджанских офицеров и до пятисот были награждены священными орденами. В этой войне участвовали Гусейн Хан Нахчыванский, Самед бек Мехмандаров, Алиага Шихлинский, Сейфулла Мирза Каджар, Джахангир бек Казымбейли, Теймур бек Новрузов и др. Особо отличились генералы и офицеры. Эта война длилась 4 года, 3 месяца и 10 дней, на фронте погибло 9,5 миллионов человек, 20 миллионов человек были ранены, 3,5 миллиона стали инвалидами.

UDC 94 (479.24)

*N.A.Allahverdiyev,R.A.Abdullayeva*
*Ganja Branch of ANAS*

AZERBAIJANI OFFICERS IN THE FIRST WORLD WAR
*SUMMARY*

*Key words:* Azerbaijan, England, Russia, France, Germany, Huseyn Nakhchivanski, Samad bey Mehmandarov, Aliaga Shikhlinski, Shahverdi Khan Ziyadkhanov

During the rule of Tsarist Russia, Muslims were not allowed to do military work. Despite this, the children of the landed classes willingly entered military schools and studied. When the First World War began, more than three hundred Azerbaijani officers fought in the battle and up to five hundred were awarded with holy orders. In this war, Huseyin Khan Nakhchivanski, Samad Bey Mehmandarov, AliaghaShikhlinski, Seyfulla Mirza Qajar, Jahangir Bey Kazymbeyli, Teymur Bey Novruzov, etc. generals and officers were specially distinguished. This war lasted 4 years, 3 months and 10 days, 9.5 million people died on the front, 20 million people were wounded, 3.5 million were disabled.

***Daxil oldu: 16.09.2024-cü il***